**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**
**Maliyyə və iqtisadi nəzəriyyə kafedrası**

# SİLLABUS
## Maliyyənin müasir problemləri
## *(5 kredit (AKTS))*

### *Müəllim haqqında məlumat*


***Müəllim: Elçin Nəsirov***
**Kafedra**: Maliyyə və iqtisadi nəzəriyyə, 1-ci mərtəbə, 118
**Mob**: +994555260390
**İş saatları:** Bazar ertəsi - Cümə 09:00 - 13:00 və 14:00 - 18:00
**E-mail:** elcin.nesirov@adau.edu.az


**Gəncə 2021**

Müəllim əvvəlcədən tələbələrə elektron poçtla məlumat verəcək və ya iş vaxtının yenidən təyin edilməsi zərurəti yarandıqda bu barədə məlumat verəcəkdir.

Bu sillabus kursa aid olan bütün praktiki aspektləri, tələbləri və müddətləri əhatə edən əsas sənəddir. Sənəd tələbələr tərəfindən alındıqdan dərhal sonra hərtərəfli oxumalı və semestr ərzində bu sənədin tələblərinə əməl edilməlidir.

Tələbələr WhatsApp qrupu və ya tələbələrin e-poçt qrupu vasitəsilə müəllimlə əlaqə qura bilərlər. Bu e-poçt ünvanı, elektron məlumatların ötürülməsi üçün tələb olunur, burada tələbələr müəllim tərəfindən təqdim oluna fənlə əlaqəli informasiyalarla tanış ola bilərlər.

Situasiyadan asılı olaraq dərslər əyani və ya koronovirus pandemiyası səbəbindən praktik olaraq onlayn Microsoft Teams platforması vasitəsi ilə keçirilə bilər.

## *Kurs cədvəli*

Dərslər aşağıdakı zamanlarda əyani formada keçiriləcək:

**Üst həftə**
Bazar ertəsi, 17:00-18:20 (mühazirə)
Bazar ertəsi, 18:30-19:50 (seminar)
**Alt həftə**
Bazar ertəsi, 18:30-19:50 (seminar)

## *Fənnin təsviri*

**Maliyyənin müasir problemləri** - dünya iqtisadiyyatının müasir inkişaf meyillərini nəzərə alaraq maliyyə sahəsində yaranan problemləri araşdırır, onları təsnifləşdirir, yaranma səbəblərini tədqiq edir və müasir tənzimlənmə üsullarını müəyyən edir.
Fənnin tədqiqat obyekti, qlobal maliyyə bazarları, beynəlxalq maliyyə-kredit institutları, mərkəzi banklar və bank sistemidir.
Maliyyənin müasir problemləri fənninin tədris məqsədi, gələcək mütəxəssislərə maliyyə sahəsində yaranan problemləri dərindən tədqiq etmək istiqamətlərinin öyrədilməsi, maliyyə təhlili üsullarının tətbiqi, maliyyə probleminin yaranmasında risk amillərinin müəyyən edilməsi və maliyyə fəaliyyətinin (mikro və makro səviyyəsində) tənzimlənməsində alternativ maliyyə xidmətlərindən istifadəni, nəzərdə tutur.

## *Fənn üzrə bilik və bacarıqlara olan tələblər*

**1.Tələbələrin mənbələr ilə işləmək bacarığı**

Fənn üzrə tədris materialı tələbələrə, muhazirələrin elektron və kağız daşıyıcısında mənbələr göstərilməklə, təqdim olunur.

Bundan başqa tələbələr ADAU-nun elektron kitabxanasında AR Mərkəzi Bankı, AR Maliyyə və AR Vergilər Nazirliklərinin internet səhifələrində yerləşdirilmiş zəngin materialdan da istifadə etmək imkanına malikdirlər.

Nəhayət tədrisdə türk, rus və ingilis dilində yazılmış ədəbiyyat mənbələrindən də istifadə etmək olar.

**2. Müasir informasiya texnologiyalarına çıxış**

- ADAU -nun elektron kitabxanasına çıxış.
- ADAU -nun elektron səhifəsinə çıxış.

- İnternetə çıxış

**3. Mövzuya olan maraq**

Tələbələrin fənnə olan marağını artırmaq məqsədilə onlara maliyyənin dünya və ölkə iqtisadiyyatının inkişafında əvəzsiz əhəmiyyətə malik olduğu izah edilir. Bunun üçün onlar ADAU-nun əsaslı kitabxanasında və internet səhifələrində, müxtəlif maliyyə institutları tərəfindən yerləşdirilmiş analitik maliyyə hesabatları ilə taniş olurlar.

4.**Tələbələrin ixtisasına olan münasibət**

Tələbələrin öz ixtisaslarına olan münasibəti qüvvətləndirmək məqsədilə hər bir tədris olunan fənnin, o cümlədən də maliyyənin iqtisadiyatda rolu və əhəmiyyəti tələbələrə çatdırılmalıdır. Tələbələrə başa salınır ki, iqtisadçı kadrların maliyyə hazırlığı, onların istehsalın kütləvi proseslərinin keyfiyyət–miqdar təhlili sahəsində metodoloji hazırlığının əsasını təşkil edir. Operativ idarəetməni həyata keçirmək, proqnozların yerinə yetirilməsinə nəzarət etmək, istifadə edilməmiş ehtiyatları aşkara çıxartmaq, hadisələrin inkişafının proqnozlaşdırılmasında maliyyə ən mükəmməl vasitədir.

5.**Xarici dil qabiliyyəti**

Yüksək ixtisaslı mütəxəssis üçün xarici dillərin əvəzsiz əhəmiyyəti var. Xarici dilləri bilməklə gələcək mütəxəssislər qabaqcıl dünya universitetlərində hazırlanmış dərslik və dərs vəsaitləri ilə tanış olmaq imkanı əldə edirlər. Buna görə də istər fənni tədris edən müəllimlərin, istərsə də tələbələrin xarici dillərdən birini bilməsi çox vacibdir.

6.**Danışıq qabiliyyəti**

Məşğələlərdə fənnin daha yaxşı öyrənilməsi üçün tələbələrin danışıq qabiliyyəti vacib əhəmiyyət kəsb edir. Tələbələrin danışıq qabiliyyətinin yüksək olması fənnin dialoq şəklində və ya sual -cavab formasında aparılmasına imkan verir. Bu isə fənnin nisbətən çətin anlaşılan mövzularını və ya suallarını daha çox xırdalamağa və onları müxtəlif istiqamətlərdən təhlil etməyə imkan verir.

7.**Məşğələlər üzrə**

Fənn üzrə tələbələrə keçirilən məşğələlərin mövzularının və hər bir mövzu üzrə yerinə yetirilməsi nəzərdə tutulan tapşırıqların qabaqcadan çatdırılması vacibdir. Bu tələbələrə hər növbəti məşğələdə yerinə yetirilməsi nəzərdə tutulan tapşırıqlarla bağlı nəzəri materiallarla tanış olmaq imkanı verir.

**8. Sərbəst işlər üzrə**

Kredit sistemi ilə təhsil alan tələbələr semestr ərzində 10 sərbəst iş yerinə yetirrməlidir. Sərbəst işlərin mövzuları əvvəlcədən müəyyən edilir və nəzərdə tutulmuş qrafik üzrə tələbələrə çatdırılır. Sərbəst işlər hər bir tələbəyə fərdi tapşırıq şəklində verilməlidir.

## *Fənnin digər fənlərlə əlaqəsi*

Maliyyənin müasir problemləri fənni aşağıdakı fənlərlə qarşılıqlı əlaqəsi var:

- Kənd təsərrüfatının iqtisadiyyatı
- Əməyin iqtisadiyyatı
- Statistika
- Menecement
- Beynəlxalq iqtisadi münasibətlər
- Sosiologiya
- Siyasətşunaslıq

## *Fənnin məzmunu*
## *Fənn üzrə saatların bölüşdürülməsi*

“Maliyyə” ixtisasının tədris planına uyğun olaraq “Maliyyənin müasir problemləri” fənni üzrə tədris yükü 45 saat həcmində nəzərdə tutulmuşdur ki, onlardan 15 saat mühazirəyə, 30 saat isə seminar məşğələsinə ayrılmışdır.

Sərbəst işin hər biri 1 balla qiymətləndirilir və semestr üzrə cəmi 10 bal təşkil edir. Semestrin sonunda tələbənin fənn üzrə dərsə davamiyyəti maksimum 10 balla, məşğələ dərsləri və kollokviumlar isə 30 balla qiymətləndirilir.

Tədris planına uyğun olaraq fənn üzrə kurs işinin yazılması nəzərdə tutulmamışdır. Fənn üzrə qalan 50 bal imtahana ayrılır.

Fənnin tədrisi imtahan ilə nəticələnir. Fənn üzrə kreditlərin sayı – 5.

## *Fənnin mövzular üzrə planı*

| S/S | Mövzuların adı | Cəmi | O cümlədən | | |
|---|---|---|---|---|---|
| | | | Mühazirə | Təcrübə | Seminar |
| 1 | **Muasir maliyyə sistemi, fond birjası və törəmə maliyyə alətləri** | 6 | 2 | - | 4 |
| 2 | **İnvestisiya və kapital qoyuluşl problemləri** | 6 | 2 | - | 4 |
| 3 | **Portfel investisiyalarının növləri və inflyasiya problemləri** | 6 | 2 | - | 4 |
| 4 | **Kapital strukturu nəzəriyyəsi və muasir kapital strukturu problemləri** | 6 | 2 | - | 4 |
| 5 | **Pul axını modelləri və likvidlik problemləri** | 6 | 2 | - | 4 |
| 6 | **Islam maliyyələşdirilməsi və ikili maliyyə sisteminin təşkili problemləri** | 6 | 2 | - | 4 |
| 7 | **Maliyyə fəaliyyətində risk amill problemləri** | 6 | 2 | - | 4 |
| 8 | **Müəssislərin birləşmə və satın alınma problemləri** | 3 | 1 | - | 2 |

## *Labaraoriya dərslərinin mövzuları və həcmi*

Fənnin tədris planın nəzərdə tutulmamışdır.

## *Mühazirənin quruluşu*

Mühazirə müddəti 60 dəqiqə onlayn olaraq planlaşdırılır. Mühazirə zamanı mövzu ilə bağlı qeydlər etmək tələbələrin məsuliyyətidir. Mühazirənin elektron versiyası müəllim və ya universitetin veb saytından əldə edilə bilər.
Mühazirə zamanı slayd materiallardan tez-tez istifadə ediləcəkdir. Eyni zamanda, çətin mövzu Microsoft Teams vasitəsilə hərtərəfli müzakirə ediləcək, aydınlaşdırılacaq və izah ediləcək. Mühazirə zamanı tələbələr mühazirəçidən qeyri-müəyyən olan materialı təkrarlamasını və / və ya aydınlaşdırmasını tələb edə bilərlər. Hər bir mövzu üzrə ədəbiyyatın müvafiq siyahısı tədris proqramının son hissəsində verilmişdir. Bundan əlavə, tələbələrin iİnternet resurslarından istifadə etmələri məsləhətdir.

Mövzuya ayrılan saatların 75% -dən çoxunda iştirak etməyən tələbələr imtahana buraxılmırlar (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli qərarı).

## *Seminar*

Seminar mövzuları və istifadə olunan ədəbiyyat siyahısı əvvəlcədən tələbələrə təqdim ediləcəkdir. Hər seminar üçün iki saat vaxt verilir. Seminarın əvvəlində tələbələrin nəzəri bilikləri təsdiqlənəcəkdir. Hər bir tələbə verilən suallara cavab verməli və mövzunu və onun əsas məntiqini başa düşdüyünü nümayiş etdirməlidir. Cavablar əzbərlənərsə və səthi olarsa, tələbənin fənni mənimsəmədiyi hesab olunur.

Hər tələbədən mövzu ilə əlaqəli bir təqdimat hazırlamaq tələb olunur. 10-15 dəqiqəlik təqdimatlar əvvəlcədən hazırlanmalıdır. 10-15 slayddan ibarət ola bilər. Təqdimatın sonunda nəticələri ümumiləşdirmək lazımdır. Təqdimatdan sonra mövzu bütün auditoriya tərəfindən müzakirə olunur. Tələbələrə əhatə olunan mövzu ilə bağlı test sualları da təqdim olunur.

***Tələbələr üçün tövsiyələr:*** *Tələbələr auditoriyada fəal iştirak etməyə, sual verməkdən, fikirlərini bildirməkdən və səhv etməkdən çəkinməməlidirlər.*

## *Sərbəst işlər*

Fənn proqramında nəzərdə tutulmuş mövzuların mənimsənilməsini möhkəmləndirmək məqsədi ilə sərbəst iş yerinə yetirilməlidir. Fənin öyrənilməsi nəticəsində əldə olunan bilik və bacarıqlar sərbəst işin hazırlanmasında öz əksini tapmalıdır.
Sərbəst işin həcmi, tərtibatı və qiymətləndirilməsinin meyarları sillabusda izah olunur.

Tələbəyə fənn üzrə semestr ərzində 10 sərbəst işin yerinə yetirilməsi tapşırığı verilir. Sərbəst işlərin tapşırıqları müxtəlif formada (mühazirə mövzuları üzrə nəzəri və ya praktiki xarakterli tapşırıqlar, "case study"lər, şifahi və ya elektron təqdimatlar, sorğular, layihə işlərinə dair hesabatlar, portfolionun qiymətləndirilməsi, qrup şəklində və özünü qiymətləndirmə və s.) ola bilər. Həmin tapşırıqlar fənni tədris edən müəllim tərəfindən müəyyənləşdirilir.

## *İmtahan*

İmtahan beş sualdan ibarət olacaqdır. Təqdim olunan bal dəyişdirilə bilməz (mexaniki və ya mövzunun hesablanmasında səhvlər istisna olmaqla). Verilən imtahan balı ilə razılaşmırsınızsa, bu məqsədlə Universitet tərəfindən yaradılan Apelyasiya komissiyası şikayət edə bilərsiniz. Apelyasiya komissiyası şikayətinizi əsaslı hesab edərsə, sizə yenidən imtahan vermək imkanı verilə bilər.

## *Qiymətləndirmə*

**TƏLƏBƏLƏRİN BİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏ FORMASI**

| | |
|---|---|
| 1. Dərsə davamiyyətə görə | – 10 bal. |
| 2. Sərbəst işə görə | – 10 bal. |
| 3. Seminar məşğələsində iştiraka görə | – 30 bal. |
| | Cəmi: 50 bal |

## *Tövsiyə olunan ədəbiyyat*
## *Əsas ədəbiyyat*

1. Azərbaycan Respublikasıının Mülkü Məcəlləsi
2. «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu.

3. Azərbaycan Respublikası Vergi Məcəlləsi. 2006.

4.Экономикс Р. Макконел, Стэнли Л. Брю. 2009 год, 19 –издание.

5.Maliyyə bazarları B. Ataşov-2016

6. Maliyyə nəzəriyyəsi B.Ataşov, N.Novruzov, E. İbrahimov -2014.

7. Maliyyə pul tədavülü kredit Dr. Z. Fərrux, dos V. Zeynalov -2007

8.Banklarda kreditlərin verilməsi qaydaları Bakı 2008

9. Banklarda risklərin idarə olunması haqqında qaydalar Bakı 2013

10. Bankların likvidliyinin idarə olunması haqqında qaydalar Bakı 2009

11. "İslamic Capital Market and Instruments" Dr Mohd Daud Bakar, Dr Syed Musa Alhabshi, Effendy Rahaman CIMA London 2013.

12. Bank-Maliyyə terminlərinin izahlı lüğəti. R.Sədirxanov, R.Həsənov. Bakı 2011-ci il